**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**

**SƏRƏNCAM**

№ 251s

Bakı şəhəri, 18 sentyabr 2012-ci il

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 2 iyun tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları"nın 4-cü hissəsinə əsasən, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq:

1. Bakı şəhərində dahi Azərbaycan bəstəkarı, SSRİ Xalq Artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət Mükafatları laureatı, akademik Qara Qarayevin abidəsinin ucaldılması məqsədi ilə Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 914 515 (doqquz yüz on dörd min beş yüz on beş) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci hissəsi ilə ayrılan vəsaitin müvafiq qaydada ödənilməsini təmin etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**